**Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin 15.11.2017-ci il tarixli 228 nömrəli əmri ilə təsdiq edilmişdir.**

Bakı şəhər məktəbliləri arasında "Gənc fiziklərin yaradıcılıq müsabiqəsi"nin keçirilməsi barədə

# Ə S A S N A M Ə

## Məqsəd və vəzifələr

Bakı şəhər məktəblilərinin fizika elminə olan marağının daha da artırılması, bu sahədə nəzəri və təcrübi biliklərinin təkmilləşdirilməsi, istedadlı şagirdlərin aşkara çıxarılması.

## Müsabiqənin iştirakçıları

Müsabiqədə IX-XI sinif şagirdlərindən ibarət Bakı şəhəri ümumtəhsil məktəblərinin və uşaq-gənclər inkişaf mərkəzlərinin komandaları iştirak edir.

## Müsabiqənin şərtləri və keçirilmə müddəti

Müsabiqə üç mərhələdə keçirilir.

Birinci mərhələ - təhsil müəssisələrində 21– 30 noyabr 2017-ci il tarixlərdə

İkinci mərhələ - Bakı şəhərinin rayonları üzrə 01 – 02 dekabr 2017-ci il tarixlərdə

Üçüncü mərhələ - Bakı şəhəri üzrə 06 – 11 dekabr 2017-ci il tarixlərdə

Komandalar 3 nəfərdən (IX sinif-1 nəfər, X sinif-1 nəfər, XI sinif-1 nəfər) təşkil olunur.

Birinci və ikinci mərhələdə iştirakçılar 2 (iki) akademik saat ərzində ümumtəhsil və uşaq-gənclər inkişaf mərkəzlərinin proqramlarına uyğun olaraq 30 sualdan ibarət testi, 2 məsələni, final mərhələsində isə həmin vaxt ərzində test və məsələ ilə yanaşı 1 təcrübə işini yerinə yetirməlidirlər.

**Müsabiqə qaliblərinin müəyyənləşdirilməsi**

Qaliblər ekspert qrupu tərəfindən müəyyənləşdirilir.

Test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1 balla, məsələ və təcrübə işi 5 balla müəyyənləşdirilir. Ən çox bal toplayan komanda qalib sayılır.

Birinci mərhələdə – məktəbdaxili yarışmada qalib gələn komandalar növbəti mərhələdə iştirak etmək hüququ qazanır və rayon Təşkilat komitəsinə sifarişlə müraciət edir.

İkinci mərhələdə hər rayon üzrə I yeri qazanmış qalib komanda növbəti mərhələdə iştirak etmək üçün vəsiqə alır.

Üçüncü mərhələdə iştirak edəcək komandalar haqqında sifarişlər rayon Təşkilat komitələri tərəfindən 04 dekabr 2017-ci il tarixədək Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Məktəbdənkənar fəaliyyətin təşkili sektorunun elektron ünvanına **mk@baku.edu.gov.az** göndərilir.

Üçüncü mərhələdə - Bakı şəhəri üzrə final mərhələsində hər rayondan 1 komanda olmaqla ümumilikdə 12 komanda iştirak edir və ilk 3 yeri tutmuş komandalar qalib hesab olunur.

"Gənc fiziklərin yaradıcılıq müsabiqəsi"nin final mərhələsində iştirak edən ______________rayonu_____№-li ___________________komandası haqqında

(təhsil müəssisəsinin adı)

**SİFARİŞ**

| **№** | İştirakçının adı, soyadı, ata adı | Sinif (dərnək) |
|---|---|---|
| **1.** | | |
| **2.** | | |
| **3.** | | |

Komandanın rəhbəri:

Təhsil müəssisəsinin direktoru: (imza, möhür)